**Əlixan Musayev**

# ÜÇ SUAL

**Azerislam.com**

**Bakı - 2003**

**Tərcümə və tərtib: Əlixan Musayev**

**İxtisasçı redaktor: Mübariz Qarayev**

**Adil Rəcəbov**

**Bu kitabçada hər kəsi dünyadan köçdükdən sonra gözləyəcək bəzi hadisələrə toxunulur və ilkin olaraq veriləcək üç sual barəsində bəhs edilir.**

**Azerislam.com**

# Ön söz

Həqiqətən, həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə o, haqq yolunda olar və kimi də azdırsa onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ilah (ibadətə haqqı olan məbud) yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

**«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»**[1]

**«Ey insanlar! Sizi tək bir şəxsdən** [Adəmdən] **xəlq edən, ondan zövcəsini** [Həvvanı] **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!** [Adı ilə] **bir-birinizdən** [cürbəcür şeylər] **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**[2]

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** [Əgər belə etsəniz, Allah] **əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə** [Cənnətə] **nail olar».**[3]

Əziz həmvətənlərim, müsəlman bacı və qardaşlarım! Biz yenə də Uca Allahın köməyi ilə dini maarifləndirmə istiqamətində fəaliyyətimizi davam etdiririk. Çünki bu çox şərəfli və həm də məsuliyyətli bir işdir. Həm dini, həm də dünyəvi cəhətdən savadlı insanların yaşadığı cəmiyyətdə problemlərin

---

[1] «Ali-İmran» surəsi, 102.
[2] «ən-Nisa» surəsi, 1.
[3] «əl-Əhzab» surəsi, 70-71.

az olması artıq sınaqdan keçmiş bir təcrübədir. Şükürlər olsun ki, bu gün azad Azərbaycanımızda bu iki istiqamətdə uğurlu irəliləyişlər artıq mövcuddur.

Diqqətinizə çatdıracağımız bu risalə çox mühüm bir məsələni əhatə edir. Belə ki, hər birimiz yaşayır, inkişaf edir və sonunda dəyişilməz nizama tabe olaraq hamı kimi dünyanı tərk edirik. Lakin ölümdən sonrakı aləmdə bizi gözləyən hadisələr barəsində heç də hamımız məlumatlı deyilik. Əlinizdə olan bu risaləyə „3 sual" adı verilməsi sizə qəribə görünməsin. Bizim hər birimiz bu 3 sual barəsində soruşulacağıq. Peyğəmbərimiz Məhəmməd - **səllallahu aleyhi və səlləm** – səhabələrdən hər hansı birini dəfn etdikdən sonra qəbrinin yanında dayanıb belə deyərdi: «(Allahdan) Qardaşınızın bağışlanmasını və onun sabitqədəm olmasını diləyin! Çünki indi o sorğu-sual olunur».[4] Başqa bir hədisdə[5] isə hər kəsin öldükdən sonra: «Rəbbin kimdir?», «Dinin nədir?» və «Peyğəmbərin kimdir?» - deyə sorğu-sual olunacağı və həmin suallara cavab verənin nicat tapacağı, cavab verə bilməyənin isə əzaba düçar olacağı xəbər verilir.

Diqqət edin, bu sualların cavabını əslində çoxlarımız bilirik və bu yazıları oxuyan şəxs onlara cavab verə biləcəyinin də asan olacağını zənn edə bilər. Lakin bu heç də belə deyildir. Bu suallara dünya həyatında cavab vermək asan olsa da öldükdən sonra onlara yalnız Allahın razı qaldığı şəxslər cavab verə biləcəkdir. Uca Allah isə bu üç sualın şərtlərindən irəli gələn tələbləri yerinə yetirən bəndəsindən razı qalır və ona həmin suallara cavab verməkdə köməklik edir.

Əziz həmvətənlərim, bu risalənin səhih məlumatlar əsasında yazıldığını qeyd etmək istərdim. Risalədə Quran

---

[4] «Sünən Əbu Davud», 2/70; «Əhkamul-Cənaiz», səh. 198.
[5] «Sünən Əbu Davud», 2/281; «Əhkamul-Cənaiz», səh. 198-202.

ayələrindən (Z. Bünyadov və V. Məmmədəliyevin tərcüməsindən) və mötəbər hədislərdən istifadə edilmişdir. Arzu edirik ki, Uca Allah bu risaləni axıra qədər oxumaqda sizə kömək olsun, xalqımızı, dövlətimizi və ümumən bütün müsəlman dünyasını xəta və bəlalardan qorusun!

# *Rəhmli, Mərhəmətli Allahın adı ilə!*

Bu kiçik risalədə toxunacağım mövzu hər bir bəndə üçün maraqlı və vacib olan mühüm bir məsələni əhatə edir. Belə ki, bu haqda kifayət qədər məlumatı olmayan hər bir şəxs özünün dünya və axirət həyatını puç edə bilər. Odur ki, risalənin adına diqqət yetirin! Burada üç sual dedikdə bərzəxdə[6] soruşulacaq suallar nəzərdə tutulur. Yəni «Rəbbin kimdir?», «Dinin nədir?» və «Peyğəmbərin kimdir?» - deyə sorğu-sual olunacaqdır. Şübhəsiz ki, hər kəs bu sualların bərzəxdə soruşulacağının həqiqət olduğunu görəcəkdir. Odur ki, bu haqda düşünməyə dəyər. Öz Rəbbini, dinini və peyğəmbərini tanıyan şəxs necə də xoşbəxtdir! Belə ki, Allah onu bu dünyada saleh əməllər etməyə və bərzəxdə həmin üç suala cavab verməyə müvəffəq edəcəkdir.

**«Allah iman gətirənləri dünyada da, axirətdə də** [bərzəx aləmində də] **möhkəm bir sözlə** [kəlmeyi-şəhadətlə] **sabitqədəm edər».**[7]

Axirətdə isə o əbədi qalacağı Cənnət və tükənməz nemətlər içində olacaqdır.

**«Həqiqətən, o kimsələr ki, iman gətirib saleh əməllər etmişlər, onlar üçün altından** [ağacları dibindən] **çaylar axan Cənnətlər vardır. Böyük uğur budur!»**[8]

Qaldı ki Rəbbini, dinini və peyğəmbərini tanımayan və ya bu üç əsası dili ilə ifadə edib əməli ilə təsdiq etməyən şəxsə, doğrudan da o ziyana uğramışdır! Belə ki, o həm bu dünyada, həm də bərzəxdə azğınlıqda olar.

---

[6] Bəndənin öldükdən sonra qiyamətədək qalacağı aləm bərzəx adlanır. «Lisanul-Ərəb», 3/8.

[7] «İbrahim» surəsi, 27.

[8] «əl-Buruc» surəsi, 11.

**«Allah zalimləri sapdırar. Allah istədiyini edər!»**[9]

Qiyamət günü isə o əbədi qalacağı Cəhənnəmdə və sürəkli əzab içində olacaqdır.

**«Həqiqətən, kitab əhlindən və müşriklərdən küfr etmiş kimsələr Cəhənnəm odunda əbədi qalacaqlar. Onlar məxluqların ən pisidirlər».**[10]

Bütün bunları deməkdə məqsədim oxucunu məyus etmək yox, əksinə bu həqiqətlər barəsində onu xəbərdar etməkdir. Belə ki, bütün bunlar Allahın dedikləridir və Onun kəlamı dəyişilməzdir.

**«Sənin Rəbbinin kəlamı doğru və ədalətli şəkildə tamam oldu. Onun kəlamlarını dəyişdirə biləcək bir kimsə yoxdur. O,** [hər şeyi] **Eşidəndir, Biləndir!»**[11]

Odur ki, bu dünyadakı imtahanların suallarına hazırlaşdığınızdan daha da artıq əzmkarlıqla bərzəxdə, daha sonra isə haqq-hesab günündə soruşulacaq suallara hazırlaşın! Dünyada ikən bu suallara cavab vermək, hamı kimi «Rəbbim Allahdır!» demək çox asandır. Lakin diqqətlə nəzər salsaq görərik ki, ömrü boyu sözdə Allahı təsdiq edib əməldə ona asi olan kəs ölümqabağı hətta quruluşca sadə bir kəlməni - şəhadət kəlməsini deməyə çətinlik çəkir, onu demək ona müyəssər olmur. Görəsən ölümqabağı bu kəlməni deyə bilməyən kəsin bərzəx aləmində halı necə olacaq? Allah hamımızı bu kəlməni deməyə müvəffəq etsin! Odur ki, insan onu mərhələlərlə xəlq edən, ona ana bətnində ruh verən Rəbbini tanımalı və Onun buyruqlarını yerinə yetirməlidir.

---

[9] «İbrahim» surəsi, 27.
[10] «əl-Bəyyinə» surəsi, 6.
[11] «əl-Ənam» surəsi, 115.

**«Bil ki, Allahdan başqa heç bir ilah yoxdur.** [Ondan] **həm öz günahlarının, həm də mömin kişilərin və qadınların** [günahlarının] **bağışlamasını dilə».**[12]

Keçmişə nəzər salsaq görərik ki, insanların böyük əksəriyyəti həmişə Allahdan qeyri kiməsə, yaxud nəyəsə iman gətirib ümidlərini yalnız ona bağlayıblar. Bu həmişə belə olub və qiyamətə qədər də belə günahlar davam edəcəkdir. O insanların bəziləri bilərəkdən, bəziləri də elmsizliyi ucbatından Allahdan üz döndərir. Onlar bu məsələyə ciddi yanaşaraq onu araşdırsalar, yəni ayə və mötəbər hədislərdən başqa heç kimə təqlid[13] etməsələr, şübhəsiz ki, haqqı tapmağa nail olarlar və başa düşərlər ki, ibadət etdikləri «məbudların»[14] özləri də Yaradanın buyruqlarını yerinə yetirir və Onun iradəsi altındadırlar. Həqiqətən, hər bir şeyi yaradan Odur! Biz insanlar yalnız Onun izni ilə nəyi isə bir şəkildən başqa bir şəklə salırıq. Məsələn, dəmirdən maşın, ağacdan ev avadanlığı, pambıqdan parça, taxıldan un məmulatı və s. istehsal edirik. Yaxşı, bəs onda dəmiri, ağacı, taxılı, pambığı və s. yaradan kimdir? Hətta «məni ata-anam yaradıb» ifadəsi belə yanlışdır. Baxmayaraq ki, ata-ana övladın yaranmasında müəyyən rol oynayan vasitədir, lakin etiraf etməliyik ki, onu ana bətnində mərhələlərlə xəlq edən də, ona ruh verən də yalnız buna qadir olan Allahdır. **«O sizi müxtəlif mərhələlərdən** [keçirərək] **yaratmışdır».**[15] Nə qədər övlad arzusunda olan ailələr vardır ki, buna nail olmamışlar! Əlbəttə, **«O, istədiyini xəlq edir. İstədiyinə** [ancaq] **qızlar, istədiyinə də** [ancaq] **oğlanlar verir. Yaxud onlara hər ikisindən - həm oğlan, həm də qız**

[12] «Məhəmməd» surəsi, 19.
[13] Nümunə götürmək.
[14] Bütlər, fal oxları, ağaclar və s.
[15] «Nuh» surəsi, 14.

**verir, istədiyini də sonsuz** [övladsız] **edir. O,** [hər şeyi] **bilən,** [hər şeyə] **qadirdir!»**[16] Həm də yaradılanların hamısının yemək-içməyə möhtac və ölümə məhkum olması, baş verən hər hansı bir müsibəti dəf etməyə qadir olmamaları onların özlərinin də kiməsə möhtac olduğunu göstərir. Bütlərin üzərinə murdar bir şeyin [quş nəcisinin və s.] düşməsi və bu bütlərin həmin murdar şeydən özlərini sadəcə olaraq qoruya bilməməyi onların ilahi sifətlərdən uzaq olduqlarını göstərir. Allah isə pak və müqəddəsdir, qüvvət və qüdrət sahibidir və heç nəyə möhtac deyildir. Elə isə gəlin elə bir məbuda iman gətirək ki, O yaratsın və məhv etsin Özü isə ölməz, əbədi və əzəli olsun, O əmr versin, Özünə isə əmr olunmasın, hər kəs Ona möhtac olsun, Özü isə heç nəyə möhtac olmasın. Odur ki, hər bir bəndəyə sual verirəm – bütün məxluqatı yoxdan yaradan kimdir? Yaxud bərzəx aləmində veriləcək ilkin sual olaraq…

# Rəbbin kimdir?

Bu sualın yalnız bir cavabı var – «Allah!» Bu cavabı Onun Öz kəlamı ilə də əsaslandırmaq olar. Uca Allah buyurur: **«And olsun ki, əgər onlardan özlərini kimin yaratdığını soruşsan, mütləq: «Allah!» - deyə cavab verəcəklər! Elə isə** [haqdan] **necə dönürlər?»**[17] Bununla belə onu da qeyd etmək lazımdır ki, hər kəs «Rəbbim Allahdır!» deyib Onun buyruqlarını yerinə yetirməsə, öz dediyini təsdiq etmiş hesab olunmur. Təqribi müqayisə etmək üçün: «ata-anam filankəsdir, mən onları çox sevirəm» deyən və sonra da valideynlərinin

[16] «əş-Şura» surəsi, 49,50.
[17] «əz-Zuxruf» surəsi, 87.

qayğısına qalmayan şəxsə baxmaq kifayətdir. Belə ki, həqiqi mömin o şəxsdir ki, Rəbbini tanıdıqdan sonra Ona itaət etsin. Uca Allah belə şəxslər barəsində buyurur: **«Şübhəsiz ki: «Rəbbimiz Allahdır!» - deyən, sonra da** [sözündə] **düz olan kəslərə** [ölüm ayağında] **mələklər nazil olub** [belə deyəcəklər]**: «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!»»**[18] Ayə açıq-aydın göstərir ki, təkcə «Rəbbim Allahdır» demək kifayət deyil, mütləq olaraq qəbul edilən Rəbbin buyruqlarını da yerinə yetirmək lazımdır. Bu xüsusda Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - əmisi oğlu Abdullah İbn Abbas (r.a) bu ayəni izah edərkən demişdir: **«Düz olan kəslər»** Allahın vacib buyurduğu əməlləri yerinə yetirən şəxslərdir.[19]

Odur ki, Uca Allah insanlar Onu tanısınlar deyə hər zaman onlara peyğəmbərlər göndərmişdir. Bu peyğəmbərlərin hər birinin başlıca vəzifəsi insanları tək Allaha ibadət etməyə dəvət etmək və Ona şərik qoşmaqdan çəkindirmək olmuşdur. Təəssüf ki, insanların bir qismi Allaha və Onun elçilərinə itaət etməkdən boyun qaçırmış və beləliklə də haqq yolundan azmışlar. Onlar barəsində Uca Allah belə buyurur: **«Biz hər ümmətə: «Allaha ibadət edin, Tağutdan** [Allahdan qeyri ibadət olunan hər bir şeydən] **çəkinin!» - deyə peyğəmbər göndərmişdik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə** [Allahın əzəli elmi ilə] **haqq yoldan azmalı olmuşdur.** [Ey müşriklər] **Yer üzündə dolaşıb görün ki,** [peyğəmbərləri] **yalançı hesab edənlərin axırı necə oldu!»**[20]

---

[18] «Fussilət» surəsi, 30.
[19] «Camiul-Bəyan», 24/115.
[20] «ən-Nəhl» surəsi, 36.

Ayədən görünür ki, hər bir ümmətdən peyğəmbərlərə iman gətirən və gətirməyən kəslər olmuşdur. Hətta elə peyğəmbər olmuşdur ki, ümmətindən heç bir kəs ona iman gətirməmişdir. İbn Abbasın (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - demişdir: «Ümmətlər mənə göstərildi. Mən (on nəfərdən az) bir toplum ilə birgə olan peyğəmbər, bir və iki kişi ilə birgə olan peyğəmbər və yanında bir kəs olmayan peyğəmbər gördüm. Birdən (uzaqda) çox sayda insan toplusu göründü və mən elə güman etdim ki, bu mənim ümmətimdir. Mənə: «Bu, Musa - **aleyhissəlam** - və onun qövmüdür!» - deyildi. Mən nəzər salıb (başqa bir) çox sayda insan toplusu gördükdə mənə deyildi: «Bu sənin ümmətindir! Onlardan yetmiş mini haqq-hesabsız və cəzasız Cənnətə daxil olacaq…»[21]

Haqq-hesab olunacaq və cəzalandırılacaq kəslərə gəlincə, onlar Allaha şərik qoşan və s. günahlar edən kəslərdir. Uca Allah bu günahkar kəslərdən istədiyini bağışlayacaq istədiyini də müvəqqəti olaraq cəzalandıracaqdır. Qaldı ki bilərəkdən Allaha şərik qoşan və tövbə etmədən ölüb gedən bəndələrə, Allah onları heç vaxt bağışlamayacaq və əbədi Cəhənnəm əzabına düçar edəcəkdir.

**«Allah Ona şərik qoşmağı əsla bağışlamaz. Bundan başqa olan günahları isə istədiyi şəxsə bağışlar. Allaha şərik qoşan şəxs, şübhəsiz ki,** [haqq yoldan] **çox azmışdır».**[22]

**«Şübhəsiz ki: «Allah Məryəm oğlu Məsihdir!» - deyənlər kafir oldular. Halbuki Məsih** [İsa] **belə demişdir: «Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin! Allaha şərik qoşana Allah, şübhəsiz ki, Cənnəti ha-**

---

[21] «Səhihul-Buxari», 5705, 5752; «Səhih Muslim», 526.
[22] «ən-Nisa» surəsi, 116.

**ram edər. Onun düşəcəyi yer Cəhənnəmdir. Zalimlərin heç bir köməkçisi yoxdur!»**[23]

Muaz ibn Cəbəl (r.a) rəvayət edir ki, mən Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - birgə onun uzunqulağının tərkində olarkən o mənə dedi: «Ey Muaz! Bilirsənmi Allahın bəndələr üzərində və bəndələrin də Allah üzərində olan haqqı nədir?» Mən dedim: «Allah və rəsulu daha yaxşı bilir!» O dedi: «Allahın bəndələr üzərində olan haqqı Ona ibadət edib heç bir şeyi Ona şərik qoşmamaları, bəndələrin Allah üzərində olan haqqı isə Ona şərik qoşmayana əzab verməməsidir!» Mən dedim: «Ey Allahın elçisi, insanları bu şad xəbərlə müjdələyimmi?» O dedi: «Xəbər vermə ki, arxayınlaşmasınlar!»[24]

Yuxarıdakı ayə və hədislərdən aydın olur ki, hər bir bəndəyə Rəbbinə ibadət etmək və ona şərik qoşmamaq vacibdir. Odur ki, hər bir müsəlman, bütün peyğəmbərlərin məramı olan: **«Allaha ibadət edin, Tağutdan çəkinin!»** ifadəsinin mənasını dərk etməlidir. Belə ki, «Allahın sevdiyi və razı qaldığı, gizlində və aşkarda olan sözləri və əməlləri əhatə edən hər bir şey ibadət adlanır».[25] Göründüyü kimi ibadət deyildikdə yalnız namaz qılmaq nəzərdə tutulmur. Əksinə, bu kəlmə Allahın buyruqlarının hamısına şamil edilir. Deməli, dua etmək, qurban kəsmək, nəzir vermək, təvəkkül etmək, ümid bəsləmək, kömək diləmək və s. bu kimi ibadətlər yalnız Allahın rizasını qazanmaq üçün yerinə yetirilməlidir. Uca Allah bu xüsusda bir çox ayələr nazil etmişdir: **«Əgər siz onları çağırsanız** [dua etsəniz]**, onlar sizin çağırışınızı eşitməzlər; eşitsələr də cavab verə bilməzlər. Özləri də**

---

[23] «əl-Maidə» surəsi, 72.
[24] «Səhihul-Buxari», 128; «Səhih Muslim», 30.
[25] «Məcmuul-Fətavə», 10/149.

**qiyamət günü sizin** [onları Allaha] **şərik qoşduğunuzu danacaqlar…»**[26]

**«Haqq dəvəti yalnız Onadır. Ondan başqa çağırdıqları isə heç bir şeylə onlara cavab vermirlər».**[27]

**«Şübhəsiz ki,** [bütün] **məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin!»**[28]

**«Sizin Allahdan başqa tapındıqlarınız isə nə sizə, nə də özlərinə birköməklik edə bilər!»**[29]

**«Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!»**[30]

**«Rəbbin üçün namaz qıl və qurban kəs!»**[31]

**«Əgər möminsinizsə, Allaha təvəkkül edin!»**[32]

**«Kim Allaha təvəkkül etsə,** [Allah] **ona kifayət edər…»**[33]

Yuxarıdakı ayələrdən görünür ki, ibadətlər birbaşa Allah üçün olmalıdır. Burada ibadətin qəbul olunması üçün Allah ilə bəndə arasında dəlil-sübutsuz vasitə tutmağın özü də şəriətə ziddir. Uca Allah buyurur: **«Bil ki, xalis din** [sırf ibadət, təmiz itaət] **ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: «Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!»** [- deyirlər]**. Şübhəsiz ki, Allah ixtilafda olduqları məsələlər barəsində** [Qiyamət günü] **onların arasında hökm edəcəkdir. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!»**[34]

---

[26] «Fatir» surəsi, 14.
[27] «ər-Rəd» surəsi, 14.
[28] «əl-Cinn» surəsi, 18.
[29] «əl-Əraf» surəsi, 197.
[30] «əl-Fatihə» surəsi, 5.
[31] «əl-Kovsər » surəsi, 2.
[32] «əl-Maidə» surəsi, 23.
[33] «ət-Talaq» surəsi, 3.
[34] «əz-Zumər» surəsi, 3.

**«Həqiqətən, Allahdan savayı çağırdıqlarınız** [tapındıqlarınız] **sizin kimi bəndələrdir. Əgər haqlısınızsa, haydı, çağırın onları, sizə cavab versinlər».**[35]

Tağuta gəlincə, onun da özünəməxsus tərifi vardır: «Bəndənin ya ibadət etdiyində, ya ardınca getdiyində, ya da itaət etdiyində həddini aşdığı hər bir şey Tağut adlanır»[36] Belə ki, Şeytan və onun havadarları Tağut sayılır. Onlar bəndələri Allahın haqq yolundan uzaqlaşdıraraq özlərinə ibadət etməyə, onların ardınca getməyə və yalnız onlara itaət etməyə sövq edirlər. Uca Allah onlar barəsində belə xəbər verir: **«Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi** [İsanı] **özlərinə rəblər etdilər. Halbuki onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdur. Ondan başqa heç bir İlah yoxdur. Allah müşriklərin Ona şərik qoşduqları şəriklərdən uzaqdır!»**[37]

**«Onlara: «Allahın nazil etdiyinə [Qurana] tabe olun!» - deyildikdə, onlar: «Xeyr, biz atalarımızın getdiyi yola** [ibadət etdiyi dinə] **tabe olacağıq!» - deyə cavab verərlər. Bəs Şeytan onları cəhənnəm odunun əzabına çağırırsa necə?** [Yenidəmi həmin yolla gedəcəklər?] **Kim yaxşı əməl sahibi olub özünü** [səmimi-qəlbdən] **Allaha təslim edərsə, o artıq ən möhkəm ipdən** [Qurandan, imandan] **yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır!»**[38]

**«Musanın əhvalatı sənə gəlib çatdımı? O zaman ki, Rəbbi onu müqəddəs Tuva vadisində çağırıb demişdir: «Fironun yanına get, həqiqətən o, həddini aşmışdır! Və de ki: «**[Günahlardan] **təmizlənmək istəyirsənmi? Səni Rəbbinə**

---

[35] «əl-Əraf» surəsi, 194.
[36] «İ'lamul-Müvəqqiin», 1/50.
[37] «ət-Tövbə» surəsi, 31.
[38] «Loğman» surəsi, 21,22.

**tərəf** [Ona ibadət etməyə] **yönəldimmi ki, sən [Ondan] qorxasan?»** [Musa Allahın dediklərini Firona çatdırdıqdan sonra] **ona ən böyük möcüzəni göstərdi. O isə** [haqqı] **təkzib edib asi oldu. Sonra da üz çevirib** [fitnə-fəsad törətməyə] **səy göstərdi. O** [camaatı] **toplayıb** [onları] **uca səslə çağırdı və dedi: «Sizin ən uca rəbbiniz mənəm!» Allah da onu axirət və dünya əzabına düçar etdi. Həqiqətən, bunda** [Allahdan] **qorxan bəndələr üçün ibrət vardır».**[39]

Yuxarıda qeyd olunan ayədə nəsranilərin Məryəm oğlu İsanı özlərinə tanrı etmələri heç də onun Tağut olmasına dəlalət etmir. Belə ki, İsa - **aleyhissəlam** - Allaha şərik qoşmağın əleyhinə olmuş və qövmünü də bundan çəkindirmişdir. Odur ki, Uca Allah onun saf etiqadda olduğunu insanlara izah edib demişdir: «[Ya Məhəmməd!] **Xatırla ki, o zaman** [qiyamət günü] **Allah belə buyuracaq: «Ya Məryəm oğlu İsa! Sənmi insanlara: «Allahla yanaşı məni və anamı da özünüzə ilah bilin!» - demişdin? İsa cavabında deyəcək: «Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər mən bunu demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər bir şeyi bilirsən, mən isə Sənin zatında olanı bilmirəm. Şübhəsiz ki, qeybləri bilən ancaq Sənsən! Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: «Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin! Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim** [onları belə nalayiq hərəkətlər etməyə qoymurdum]. **Sən ömrümü tamam etdikdən** [və Öz dərgahına qaldırdıqdan] **sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!»**[40]

---

[39] «ən-Naziat» surəsi, 15-26.
[40] «əl-Maidə» surəsi, 116,117.

Artıq bizə məlum oldu ki, Rəbbimiz hər şeyi yaradan və idarə edən, qüdrət və qüvvət sahibi olan, heç nəyə və heç kəsə möhtac olmayan, pak və müqəddəs olan Uca Allahdır. Şübhəsiz ki, O, hər bir məxluqu Öz hikməti ilə yaratmış və bundan sonra da yaradacaqdır. Elə isə gəlin ilk əvvəl yaradılışımızın hikməti barədə düşünək. Heç ola bilərmi ki, bu həyatda yaşamağın məqsədi ancaq yemək-içmək, yatmaq və şəhvəti ödəmək olsun, xeyirxah insanlar mükafatsız, zalim insanlar da cəzasız qalsın? Bilin ki, Uca Allah bizi əbəs yerə yaratmayıb və şübhəsiz ki, hamımız Onun hüzuruna qaytarılacağıq. Allahın hüzuruna qaytarılacaqlarına inanmayan günahkar kəslərə isə belə deyiləcəkdir: **«Yoxsa sizi əbəs yerə yaratdığımızı və** [qiyamət günü dirilib haqq-hesab üçün] **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?»**[41]

Bu cür qınanılan aqibətə məruz qalan kəslərdən olmamağı arzulayan hər bir kəs indidən yaxşı-yaxşı düşünməli və Allahın məhəbbətini qazanmaq üçün əlindən gələni əsirgəməməlidir. Vay o kəslərin halına ki, onlar Allahı, Allah da onları unutmuşdur. Elə isə Allahı xatırlayın ki, O da sizi yada salsın! Allahı yalnız müsibət gəldikdə xatırlayan kəslərdən olmayın. Onlar barəsində Uca Allah belə buyurur: **«Sizə dənizdə bir çətinlik** [batmaq təhlükəsi] **üz verdiyi zaman** [Allahdan] **qeyri ibadət etdiyiniz bütlər qeyb olar. Lakin O sizi xilas edib quruya çıxartdıqda** [itaətindən] **üz döndərirsiniz. İnsan nankordur! Məgər** [Allahın] **quruda sizi yerə batırmayacağına, yaxud** [göydən] **başınıza daş yağdırmayacağına əminsinizmi?! Sonra heç sizi qoruyan da tapılmaz. Yoxsa** [Allahın] **bir də sizi dənizə qaytarmayacağına, şiddətli bir fırtına göndərib sizi batırmayacağına arxayınsınız? Sonra sizdən ötrü Bizdən intiqam alacaq bir kəs də**

[41] «əl-Muminun» surəsi, 115.

**tapa bilməzsiniz».**[42] Ayədən görünür ki, müsibət baş verdikdə insanlar ibadət etdikləri Tağutlardan üz döndərib yalnız Allaha sığınırlar, Ondan kömək diləyirlər. Təhlükə sovuşduqdan sonra isə onlarla bərabər həmin təhlükəyə məruz qalmış Tağutlara qurban, nəzir və s. verirlər. Əgər bu Tağutlar ilahi qüvvəyə malikdirlərsə onda nə üçün hər hansı bir müsibətə düçar olmalı və hamı kimi Allahın iradəsi altında qalmalıdırlar? Baxın görün Allah onların aciz olduğuna dair necə gözəl misal çəkir: **«Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allahdan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan** [bütlərin üstündə olanlardan] **bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də!** [Bütlər də aciz, milçək də, yaxud bütlərə ibadət edən də aciz, ibadət edilən bütlər də!]»[43]

Uca Allah bütün günahları insanlara başa salmaq, haqqı onlara bildirmək üçün vahid olan bir din göndərmişdir. O din ki, insanları tək olan Allaha ibadət etməyə və Tağutdan çəkinməyə çağırır. Odur ki, belə bir din haqda məlumatı olmayan hər kəsə bərzəx həyatından fərqli olaraq istədiyi cavabı verə biləcək bir məkanda və zamanda sual verirəm…

# Dinin nədir?

Təbii ki, biz bu suala müxtəlif cür cavablar ala bilərik, lakin onlardan doğru olanı yalnız Allahın buyurduğudur. Uca Allah hər zaman insanlara elçilər göndərmişdir ki, onları təhrif

---

[42] «əl-İsra» surəsi, 67-69.
[43] «əl-Həcc» surəsi, 73.

olunmuş «dinlərdən» Onun haqq olan dininə qaytarsın. Elə isə gəlin baxaq görək Rəbbimiz ən hörmətli elçiləri barəsində nə deyir:

«[Bir zamanlar Nuh - aleyhissəlam - belə demişdir]: **Mənə müsəlmanlardan olmaq əmr edilmişdir!»**[44]

**«Rəbbi İbrahimə:** «[Əmrimə] **təslim ol!» - dedikdə, o: «Aləmlərin Rəbbinə təslim oldum** [müsəlman oldum]**!» - deyə cavab vermişdi. İbrahim və** [sonra da] **Yəqub bunu** [müsəlman olmağı] **öz oğlanlarına vəsiyyət edib** [hər biri dedi]**: «Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün** [belə bir] **din** [islam dini] **seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!»».**[45]

**«Musa dedi: «Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və müsəlman olmusunuzsa, Ona təvəkkül edin!»**[46]

**«Xatırla ki, o zaman həvarilərə** [İsanın - aleyhissəlam - on iki əshabəsinə] **: «Mənə və peyğəmbərimə iman gətirin!» - deyə təlqin etdim. Onlar isə: «Biz iman gətirdik və şahid ol ki, biz müsəlmanlardanıq» - dedilər».**[47]

Bu ayələrdə xüsusi şəkildə qeyd olunan müsəlman kəlməsinin həmin elçilərin şəriət qayda-qanunlarına heç bir aidiyyatı yoxdur. Bütün peyğəmbərlərin etiqadlarının eyni olmasına baxmayaraq, Allah onların hər birinə özünəməxsus şəriət qanunları təyin etmişdir. Bu fikri təsdiqləmək üçün Uca Allahın bu kəlamı yetər: **«Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi** [eyni şəriətə tabe] **vahid bir ümmət edərdi. Lakin** [bu müxtəliflik] **Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür».**[48]

---

[44] «Yunus» surəsi, 72.
[45] «əl-Bəqərə» surəsi, 131,132.
[46] «Yunus» surəsi, 84.
[47] «əl-Maidə» surəsi, 111.
[48] «əl-Maidə» surəsi, 48.

İslam kəlməsinin mənasına gəlincə, bu tövhidlə[49] Allaha təslim olmaq, itaətlə Ona tabe olmaq, şirkdən və şirk əhlindən uzaq olmaq deməkdir. Odur ki, Uca Allah buyurur: **«Allah yanında** [haqq olan] **din, əlbəttə, islamdır».**[50] **«Kim islamdan başqa bir din ardınca gedərsə,** [o din] **heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!»**[51]

İslam dininin üç mərhələsi vardır: islam, iman və ehsan. Bunlardan hər birinin özünəməxsus əsasları vardır. Belə ki, islam beş əsasdan - şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, oruc tutmaq və həccə getməkdən ibarətdir. İbn Ömərin (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** belə buyurur: «İslam beş (dayaq) üzərində qurulmuşdur: «Allahdan başqa (ibadətə layiq olan) ilahın olmamasına və Məhəmmədin Onun qulu və elçisi olduğuna şəhadət gətirmək, namazı yerinə yetirmək, zəkat vermək, evi (Kəbəni) ziyarət etmək və Ramazan orucunu tutmaq!»[52] Hədisdə sadalanan bu beş əsası aşağıdakı ayələrlə də sübuta yetirmək olar. Uca Allah buyurur: **«Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər»**[53]

**«Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu** [elçisi] **və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir»**[54]

---

[49] Tövhid yalnız Allaha ibadət etmək deməkdir.
[50] «Ali-İmran» surəsi, 19.
[51] «Ali-İmran» surəsi, 85.
[52] «Səhihul-Buxari», 8; «Səhih-Muslim», 16.
[53] «Ali-İmran» surəsi, 18.
[54] «əl-Əhzab» surəsi, 40.

**«Halbuki onlara əmr edilmişdi ki, Allaha – dini yalnız Ona məxsus edərək, digər bütün dinlərdən islama dönərək – ibadət etsinlər, namaz qılıb, zəkat versinlər. Doğru-düzgün din budur»**[55]

**«Onun yoluna** [ərzaq, minik, sağlamlıq və təhlükəsizlik baxımından] **gücü çatan hər bir kəsin həccə gedib o evi** [müqəddəs Kəbəni] **ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu inkar edərsə** [özünə zülm etmiş olar]**. Əlbəttə, Allah aləmlərə** [heç kəsə] **möhtac deyildir!»**[56]

**«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə,** [bunun vasitəsilə] **siz pis əməllərdən çəkinəsiniz»**[57]

Yuxarıda qeyd olunanlardan aydın oldu ki, Allahın buyruqlarının ən əsası beşdir. Biz bütün bunlara diqqətlə nəzər salsaq görərik ki, Uca Allahın vacib buyurduğu bu beş əsası yerinə yetirmək çətin deyildir. O ki qalsın Onun digər buyruqlarına…

- hər bir insan «Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rasulullah»[58] kəlməsini deməklə müsəlman olur.

- hər bir müsəlman gün ərzində ixtiyarına verilmiş iyirmi dörd saatın yalnız bircə saatını beş vaxt namaz qılmağa sərf edir. Qalan iyirmi üç saatını isə yeyir, yatır, işləyir və s. işlərlə məşğul olur.

- hər bir müsəlman il ərzində Allahın ona verdiyi bol ruzilərdən istədiyi qədər istifadə edir və yalnız ilin tamamında mövcud olan mal-dövlətinin, qızıl-gümüşünün qırxda bir

---

[55] «əl-Bəyyinə» surəsi, 5.

[56] «Ali-İmran» surəsi, 97.

[57] «əl-Bəqərə» surəsi, 183.

[58] Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa (ibadətə layiq olan) məbud (ilah) yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun elçisidir.

hissəsini zəkat verir. Bu da yalnız imkanlı olan şəxslərə vacibdir.

- hər bir imkanlı müsəlmana ömrü boyu yalnız bircə dəfə həcc ziyarəti etmək vacibdir ki, bu da az bir vaxt aparır.

- hər bir müsəlman on iki ay yeyib-içir və yalnız bircə ay Ramazan ayı oruc tutur. Bu ayda da o ancaq gündüzlər oruc tutur. Gecələr isə yenə yeyib-içməyinə davam edir.

Gördüyünüz kimi bütün bu sadaladıqlarım çox asanlıqla yerinə yetirilən əməllərdir. Bütün bunları bizim üçün asanlaşdıran Uca Allah belə buyurur: **«Allah sizin üçün ağırlıq deyil yüngüllük istər…»**[59]

Elə isə qoy bu qədər asanlaşdırılan bir dinin vacibatlarını yerinə yetirməyən insanlar Rəbbinin qarşısında nə cavab verəcəkləri barədə düşünsünlər. Qiyamət günü «məni başa salan olmayıb», «bunları etməyə mənim vaxtım olmayıb», «məni aldadıblar» və s. bu kimi bəhanələr qəbul olunmayacaq.

İslamın ikinci mərhələsi Allahın və peyğəmbərinin dediklərinə iman gətirməkdir. Ömərin (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm** - iman barəsində ondan soruşan Cəbrailə (a.s)[60] belə demişdir: «Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə, Axirət gününə iman gətirməlisən, (həmçinin) xeyir və şərin qədərinin (Allah tərəfindən) təyin olmasına da iman gətirməlisən!»[61] Hədisdə sadalanan bu altı əsası aşağıdakı ayələrlə də sübuta yetirmək olar. Uca Allah buyurur: **«Yaxşı əməl heç də** [ibadət vaxtı] **üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət**

[59] «əl-Bəqərə» surəsi, 185.
[60] Cəbrail (a.s) peyğəmbərlərə vəhy gətirən mələkdir.
[61] «Səhihul-Buxari», 8; «Səhih-Muslim», 16.

**gününə, mələklərə, kitaba** [Allahın nazil etdiyi bütün ilahi kitablara] **və peyğəmbərlərə inanandır»**[62]

**«Şübhəsiz ki, biz hər şeyi müəyyən ölçüdə** [lazım olduğu qədər] **yaratdıq»**[63]

Qeyd etmək lazımdır ki, imanın şöbələri bu altı əsasla məhdudlaşmır. Belə ki, bunlar da daxil olmaqla onun altmışdan çox şöbəsi bizə məlumdur.

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər - səllallahu aleyhi və səlləm - demişdir: «İman altmış və bir neçə şöbədən ibarətdir, həya da imanın şöbəsindəndir».[64] Başqa bir hədisdə isə: «İman yetmiş və bir neçə şöbədən ibarətdir…»[65] ləfzi ilə rəvayət olunmuşdur. Bu hədisə aydınlıq gətirən Əhməd ibn Həcər əl-Əsqəlani belə demişdir: «İmanın bu şöbələri üç qismə bölünür. Bunlardan bir qismi qəlb, bir qismi dil, bir qismi də bədən üzvləri ilə, icra edilən əməllərlə əlaqəlidir. Qəlb ilə icra edilən əməllərə etiqadları və niyyətləri misal çəkmək olar ki, bunların da sayı iyirmi dörddür:

1 - 6 - Allaha, Onun mələklərinə, nazil etdiyi kitablara, göndərdiyi elçilərə, Axirət gününə, xeyir və şərin qədərinin Allahdan olmasına iman gətirmək;

7 - Allahı sevmək;

8 - Allah xatirinə sevmək və <u>*qəzəblənmək*</u>;

9 - Məhəmməd Peyğəmbəri (s.ə.s) sevmək və <u>*onun çox hörmətli olduğuna etiqad etmək*</u>;

10 - İxlaslı olmaq (səmimi qəlbdən Allaha ibadət etmək, nifaqdan və riyakarlıqdan uzaq olmaq) ;

11 - Tövbə etmək;

---

[62] «əl-Bəqərə» surəsi, 177.
[63] «əl-Qəmər» surəsi, 49.
[64] «Səhihul-Buxari», 9.
[65] «Səhih-Muslim», 151.

12 - Qorxmaq (yəni yalnız Allahdan qorxmaq) ;
13 - (Allahın rəhmətinə) ümid etmək ;
14 - Şükür etmək;
15 - Vəfalı olmaq;
16 - Səbir etmək;
17 - Qəza və Qədərdən razı qalmaq;
18 - Təvəkkül etmək (yalnız Allaha arxayın olmaq) ;
19 - Rəhmli olmaq;
20 - Təvazökar olmaq;
21 - Təkəbbürlü və *özündən razı olmamaq*;
22 - Həsəd, paxıllıq etməmək;
23 - Kin saxlamamaq;
24 - Qəzəblənməmək.

**- Dil ilə icra edilən əməllərə aid olan imanın şöbəsi isə yeddidir:**

1 - Tövhid kəlməsini «Lə ilahə illəllah Muhəmmədən rəsulullah» tələffüz etmək;
2 - Quran oxumaq;
3 - Elm öyrənmək;
4 - Elm öyrətmək;
5 - Dua etmək;
6 - Zikr etmək;
7 - Faydasız sözlərdən uzaq olmaq.

**- Bədən üzvləri ilə icra edilən əməllərə aid olan imanın şöbəsi isə otuz səkkizdir:**

1 - Zahiri və *daxili* təmizlik;
2 - Övrət yerini örtmək;

3 - Fərz və *nafilə* [66] namazlarını qılmaq;
4 - Fərz və *nafilə* zəkatını vermək;
5 - Qul azad etmək;
6 - Yaxşılıq etmək, qonaqpərvər olmaq;
7 - Fərz və *nafilə* orucunu tutmaq;
8 - Həcc və *Ümrə* [67] ziyarəti etmək;
9 - Kəbənin ətrafında təvaf etmək;
10 - Etikaf etmək (Ramazan ayının axır on gününü məsciddə qalmaq) ;
11 - Qədr gecəsini ibadətlə keçirmək;
12 - Hicrət (şirk, küfr olan yeri tərk) etmək;
13 - Nəzir etdikdə onu ödəmək;
14 - Allaha itaət edib, Ona asi olmayaraq imanı artırmaq;
15 - Hər hansı bir günaha görə müəyyən cəriməni (kəffarəni) ödəmək;
16 - Evlənmək və ya ərə getməklə zinadan qorunmaq;
17 - Ailəni dolandırmaq;
18 - Valideynlərin qayğısına qalmaq, *onlara asi olmamaq*;
19 - Uşaqları tərbiyə etmək;
20 - Qohumluq əlaqələrini möhkəmləndirmək;
21 - Ağaya itaət etmək, *qul ilə mülayim rəftar etmək*;
22 - Ədalətlə hökm vermək;
23 - Müsəlman camaatı ilə həmrəy olmaq;
24 - İxtiyar sahiblərinə (rəhbərlərə) itaət etmək;
25 - İnsanlar arasında olan münasibətləri islah etmək;
26 - Yaxşılıq etməkdə əlbir olmaq;
27 - (İmkan daxilində) şəriət qanunlarını icra etmək;
28 - (Nəfslə, Şeytanla və s.) cihad etmək;
29 - Əmanətə xəyanət etməmək;

[66] Vaciblərdən başqa Sünnədə varid olan əlavə ibadətlər.
[67] Kiçik həcc ziyarəti.

30 - Borc aldıqda onu qaytarmaq;
31 - Qonşuya yaxşılıq etmək;
32 - Əxlaqlı olmaq, gözəl rəftar etmək;
33 - Lazımi yerə pul xərcləmək, israf etməmək;
34 - Salamı almaq;
35 - Asqırıb «əlhəmdulillah»[68] deyənə «yərhəmukəllah»[69]- demək;
36 - İnsanlara əziyyət verməmək;
37 - Faydasız əməllərdən çəkinmək;
38 - Əziyyət verən bir şeyi yoldan kənar etmək. [70]

İslamın sonuncu mərhələsi isə ehsandır. Ömərin (r.a) rəvayət etdiyi hədisdə Cəbrail (a.s) Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - ehsan barəsində soruşmuş və o belə cavab vermişdir: «Allaha elə ibadət et ki, sanki sən Onu görürsən, sən onu görməsən də O səni görür!»[71] Hədisdə qeyd olunan bu əsası aşağıdakı ayələrlə də sübuta yetirmək olar. Uca Allah buyurur: **«Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir».**[72]

**«O Allah ki, səni namaza duranda da görür, səcdə edənlər içində dolananda da. Həqiqətən,** [hər şeyi] **eşidən və bilən Odur»**[73]

Bəşəriyyətə belə bir din göndərən Allaha şükürlər olsun! Həqiqətən, O, insanları dünya və axirətdə nicat tapmağa çağırır. Təəssüf ki, insanların əksəriyyəti bundan bixəbərdirlər və buna görə də üzrlü hesab olunurlar. Odur ki, Allah Öz

---

[68] Duanın tərcüməsi: Həmd olsun Allaha!
[69] Duanın tərcüməsi: Allah sənə rəhm etsin!
[70] «Fəthul-Bari», 1/68.
[71] «Səhihul-Buxari», 8; «Səhih-Muslim», 16.
[72] «ən-Nəhl» surəsi, 128.
[73] «əş-Şüəra» surəsi, 218-220.

bəndələrinə rəhm edir və onlara bu din təbliğ olunana qədər möhlət verir. Bu həqiqətlər onlara bəyan edildikdən sonra isə hər kəs etdiyi günaha görə özü məsuliyyət daşıyır. Elə isə bu risaləni oxuduqdan sonra üzrlü sayılıb-sayılmayacağınız, sorğu-sual olunub-olunmayacağınız barədə düşünün! **«Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz.** [Hərə öz günahına cavabdehdir]**. Biz, rəsul** [elçi] **göndərməmiş** [heç bir ümmətə] **əzab vermərik!»**[74]

Artıq Rəbbimizin Allah və dinimizin islam olduğu sizə məlum oldu. İndi isə gəlin bu məlumatların necə əldə olunması barədə düşünək. Məgər bütün bu yazdıqlarım mənə yuxuda agah olub? Bəlkə bütün bunlar əvvəlkilərin uydurub düzəltdikləri əfsanələrdir?! Xeyr! Bu nə yuxu, nə də əfsanədir. Əksinə, bir çox insanlar haqq olan bu dinin kim tərəfindən təbliğ olunduğundan xəbərsizdirlər. Nəzərə alsaq ki, bir çox insanlar haqq olan bu dinin kim tərəfindən təbliğ edildiyindən xəbərsizdirlər onda növbəti verəcəyim sual belədir – bu dini bəşəriyyətə çatdırmaq üçün Allahın seçdiyi elçi kimdir? Yaxud bərzəx aləmində veriləcək üçüncü sual olaraq…

# Peyğəmbərin kimdir?

Şübhəsiz ki, hər bir müsəlman bu suala: «Məhəmməddir»- deyə cavab verəcək. Lakin biz onlardan bu insanın necə şəxsiyyət olması barədə soruşsaq bir çoxlarının məlumatsız olduğunu görəcəyik. Odur ki, belə bir şəxsiyyət barəsində az da olsa məlumatlı olmağımız gərəklidir.

[74] «əl-İsra» surəsi, 15.

Məhəmməd peyğəmbər - səllallahu aleyhi və səlləm - miladi tarixi ilə 570-ci ildə anadan olmuş və uşaq ikən yetim qalmışdır. Peyğəmbər - səllallahu aleyhi və səlləm - hələ doğulmamışdan atası Abdullah, altı yaşında isə anası Əminə vəfat etmişdir. Anası vəfat etdikdən sonra peyğəmbərin - səllallahu aleyhi və səlləm - ata babası Əbdülmüttəlib onu öz himayəsinə götürmüşdür. Babasının vəfatından sonra isə əmisi Əbu Talib onun hamisi olmuşdur. Qırx yaşına çatdıqda Uca Allah onu seçib təkcə öz qövmünə deyil bütün insanlara Cənnətlə müjdə verən, Cəhənnəm əzabı ilə qorxudan elçi göndərmişdir. Məhəmməd - səllallahu aleyhi və səlləm - islam dinini on üç il Məkkədə, on il də Mədinədə insanlara təbliğ etmiş və nəhayət altmış üç yaşında vəfat etmişdir. O, dini təbliğ edərkən bir çox çətinliklərlə üzləşmiş, kafirlərin əzab-əziyyətlərinə məruz qalmış, lakin bütün bunlara səbir etmişdir. Peyğəmbər - səllallahu aleyhi və səlləm - təbliğatını tamamlayana qədər Uca Allah onu Şeytan və onun havadarlarının şərindən qorumuşdur. Rəbbimiz bu xüsusda belə buyurur: **«Biz səndən əvvəl də elə bir elçi, elə bir peyğəmbər göndərmədik ki, o, bir iş görmək arzusunda olanda şeytan onun arzusuna xələl qatmasın. Lakin Allah şeytanın qatdığını pozar** [onun vəsvəsəsini batil edər]**. Sonra isə Allah Öz ayələrini möhkəmlədər. Allah** [hər şeyi] **biləndir, hikmət sahibidir!»**[75] Onun təbliğ etdiyi müqəddəs Quran on dörd əsrdir ki, olduğu kimi qalıb, qiyamətə qədər də belə qalacaqdır. Uca Allah bu xüsusda belə buyurur: **«Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!»**[76] **«Batil ona nə önündən, nə də arxasından**

[75] «əl-Həcc» surəsi, 52.
[76] «əl-Hicr» surəsi, 9.

**yol tapar. O, hikmət sahibi, tərifəlayiq** [Allah] **tərəfindən nazil edilmişdir».**[77]

O - səllallahu aleyhi və səlləm - , peyğəmbərlərin sonuncusu olduğu üçün biz yalnız onun gətirdiyi şəriətə tabe oluruq. Lakin bu heç də o demək deyildir ki, biz ancaq Məhəmmədə - səllallahu aleyhi və səlləm - iman gətirir, digər peyğəmbərləri isə inkar edirik. Əksinə, Uca Allah bizə bütün peyğəmbərlərə iman gətirməyi əmr edir: **«Allaha və Onun peyğəmbərlərinə iman gətirin! Əgər iman gətirib Allahdan qorxsanız, sizi böyük mükafat gözləyir!»**[78] **«Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə** [Qurana] **inanmış və möminlər də iman gətirmişlər.** [Onların] **hamısı Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirərək dedilər: «Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.** [Allahın hökmlərini] **eşitdik** [anladıq] **və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla,** [axırda] **Sənin dərgahına** [hüzuruna] **qayıdacağıq!»**[79] Odur ki, adları Qurani Kərimdən bizə məlum olan və olmayan peyğəmbərlərin hər birinin Allah tərəfindən seçilib insanlara göndərildiyinə iman gətiririk. Onların etiqadları eyni, gətirdikləri şəriət qanunları isə fərqli olmuşdur. Buna görə də biz bu peyğəmbərlərdən hər birinin etiqad etdiyinə etiqad edir və yalnız sonuncusunun şəriətinə tabe oluruq. **«Peyğəmbər sizə nə verirsə onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun!»**[80] **«De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayan və mərhəmətlidir»**[81] Bu ayələrdən belə nəticə çıxır ki, Peyğəm-

---

[77] «Fussilət» surəsi, 42.
[78] «Ali-İmran» surəsi, 179.
[79] «əl-Bəqərə» surəsi, 285.
[80] «əl-Həşr» surəsi, 7.
[81] «Ali İmran» surəsi, 31.

bərin - səllallahu aleyhi və səlləm - buyruqlarını da yerinə yetirmək lazımdır. Məhəmməd - səllallahu aleyhi və səlləm - insanlara yalnız Allah tərəfindən ona nazil olanı - Quran və onun izahını (Sünnəni[82]) təbliğ etmişdir. Uca Allah bu xüsusda belə buyurur: **«O kefi istəyəni** [havadan] **danışmır. Bu ancaq nazil olan bir vəhydir»[83] «Sənə də Zikri** [Quranı] **nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!»[84]**

Quranı izah edən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - Sünnəsinə gəlincə, bəzi islam alimləri[85] onu altı qismə bölmüşlər:

**Birinci:** səbəblə bağlı olan Sünnə. Buna asqırdıqdan sonra «əlhəmdulillah» deməyi misal çəkmək olar. Belə ki, asqırmaq bu kəlməni ifadə etmək üçün səbəbdir. Əgər biz bunu səbəbsiz olaraq məsələn, əsnədikdə desək peyğəmbərin - səllallahu aleyhi və səlləm - Sünnəsinə müxalif olmuş hesab olunuruq.

**İkinci:** keyfiyyətlə bağlı olan Sünnə. Buna ruku və səcdəni misal çəkmək olar. Belə ki, səcdəni rukudan sonra etmək namazın keyfiyyətlərindəndir. Əgər biz əvvəl səcdə sonra da ruku etsək şübhəsiz ki, peyğəmbərin - səllallahu aleyhi və səlləm - Sünnəsinə müxalif olmuş olarıq.

**Üçüncü:** miqdarla bağlı olan Sünnə. Buna gündəlik qılınan beş namazın rükətlərinin sayını misal çəkmək olar. Məsələn sübh namazını iki rükətdən artıq və ya əskik qılmaq Peyğəmbərin - səllallahu aleyhi və səlləm - Sünnəsinə ziddir.

---

[82] Bu kəlmə lüğətdə yol, adət və s. mənaları ifadə edir. İstilahi mənada (şəriətdə) isə peyğəmbərdən - səllallahu aleyhi və səlləm - varid olan hər bir kəlmə, hərəkət, (səhabələrinin hər hansı sözünü və ya hərəkətini) təsdiq etmə və sifət (fitri və ya əxlaqi dəyərlər)» Sünnə adlanır.

[83] «ən-Nəcm» surəsi, 3-4.

[84] «ən-Nəhl» surəsi, 44.

[85] «əş-Şərhul-Mumti», 1/484.

**Dördüncü:** cinslə bağlı olan Sünnə. Buna qurban bayramında (zil-hiccə ayının 10-u, 11-i, 12-si və 13-ü, yəni qurban günlərində) kəsilən qoç, öküz və dəvəni misal çəkmək olar. Belə ki, bu bayramda ətinin yeyilməsi halal olan başqa bir heyvan (dovşan, xoruz, qaz və s.) qurban kəsmək sünnəyə müxalifdir.

**Beşinci:** zamanla bağlı olan Sünnə. Buna hər hansı bir namazın vaxtını misal çəkmək olar. Məsələn məğrib namazını gün batmamışdan əvvəl qılmaq Sünnəyə ziddir.

**Altıncı:** məkanla bağlı olan Sünnə. Buna etikafı (Ramazan ayının axır on gününü məsciddə keçirməyi) misal göstərmək olar. Odur ki, etikafı məsciddən başqa yerdə keçirmək Sünnəyə müxalifdir.

Deməli, hər bir müsəlman dini ayinləri yerinə yetirdikdə son dərəcədə diqqətli olmalı və Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - əmrlərinə qarşı çıxmamalıdır. O yalnız dəlil-sübutla ibadət etməli və dinə əlavə edilmiş hər bir yenilikdən uzaq olmalıdır. Uca Allah beləlærini hədələyib demişdir: **«Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən** [səhabələrdən] **qeyrisinin yoluna uyarsa, onu istədiyi yola yönəldər və Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir».**[86] **«Onun** [Peyğəmbərin] **əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər».**[87] Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm** - onların əməllərinin qəbul olunmamağını xəbər verib belə demişdir: «Bizim bu işimizə [dinimizə] dindən olmayan bir yenilik gətirən kəsin bu əməli rədd olunur».[88]

---

[86] «ən-Nisa» surəsi, 115.
[87] «ən-Nur» surəsi, 63.
[88] «Səhih-Muslim», 4467.

Təəssüf ki, bəzi insanlar iman gətirdiklərini dili ilə ifadə edir və: «Qəlbim təmizdir» - deməklə kifayətlənərək Allaha və Onun rəsuluna itaət etmirlər. Məgər ömrü boyu Allahın buyruqlarını yerinə yetirən peyğəmbərlərin, səhabələrin, imamların və dədə-babalarımızın qəlbi təmiz deyildimi? Allahın əmrlərini yerinə yetirib qadağan etdiyi şeylərdən çəkinmək sənin qəlbinin daha təmiz olmasına gətirib çıxarmazmı? ***Bu barədə düşünməyə dəyər!***

O zamanlar Məkkə müşrikləri peyğəmbərimizin gətirdiyi bu dini sehr, onun özünü isə sehrbaz, məcnun, kahin adlandırırdılar. Uca Allah onlar barəsində belə demişdir: **«Ayələrimiz onlara** [müşriklərə] **açıq-aşkar olaraq oxunduğu zaman: «Bu ancaq sizi atalarınızın ibadət etdiklərindən** [bütlərdən] **döndərmək istəyən bir adamdır!» - deyər,** [Quran haqqında isə:] **«Bu, uydurma yalandan başqa bir şey deyildir!» - söyləyərlər. Kafir olanlara haqq** [Quran] **gəldikdə onun barəsində: «Bu yalnız açıq-aşkar bir sehrdir!» - deyərlər».**[89] «[Ya Rəsulum!] **Əgər sənə kağız üzərində** [yazılı] **bir kitab nazil etsəydik və onlar əlləri ilə ona toxunmuş olsaydılar belə, kafirlər yenə də: «Bu, açıq-aydın bir sehrdir», - deyərdilər».**[90] **«Onlar öz içərilərindən özlərinə** [Allahın əzabı ilə] **qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: «Bu, yalançı bir sehrbazdır!»**[91] **«Elə isə** [ya Peyğəmbər! Sən müşriklərə] **öyüd-nəsihət ver. Sən öz Rəbbinin neməti sayəsində nə kahinsən, nə də divanə!»**[92]

[89] «Səba» surəsi, 43.
[90] «əl-Ənam» surəsi, 7.
[91] «Sad» surəsi, 4.
[92] «ət-Tur» surəsi, 29.

**«Onlara: «Allahdan başqa heç bir ilah yoxdur!» - deyildiyi zaman təkəbbür göstərirdilər. Və: «Biz heç divanə bir şairdən ötrü tanrılarımızı tərk edərikmi?!» - deyirdilər».**[93] Bu ayələrdən də görünür ki, o - səllallahu aleyhi və səlləm - nə sehrbaz, nə də kahindir. Doğrusu Məhəmməd - səllallahu aleyhi və səlləm - Allahın qulu və elçisidir. Burada qul deyildikdə onun ilahi sifətlərə malik olmadığı qəsd edilir. Yəni o, hamı kimi Allahın iradəsinə tabe olan bir insandır. Bu barədə Uca Allah belə buyurur: **«De: «Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki,** [özüm üçün] **daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı ancaq qorxudan və müjdələyənəm!»**[94]

Ayədən göründüyü kimi hətta peyğəmbər - səllallahu aleyhi və səlləm - belə nə xeyir, nə də zərər vermək iqtidarında olmayıb. Elə isə nə üçün biz Allahdan qeyrisinin bizə xeyir və ya zərər verə biləcəyinə etiqad etməliyik? Məhəmmədin - səllallahu aleyhi və səlləm - elçi olması isə onun digər insanlardan üstünlüyünü bildirir. Belə ki, Uca Allah onu bəzi xüsusiyyətləri ilə bütün insanlardan, hətta digər peyğəmbərlərdən belə üstün etmişdir. Bu xüsusiyyətlərdən:

- Peyğəmbərlərin sonuncusu olması;

**«Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur».**[95]

- Bütün bəşəriyyətə (insanlara və cinlərə) peyğəmbər göndərilməsi;

**«De: «Ey insanlar! Mən Allahın sizin hamınız üçün göndərilmiş elçisiyəm».**[96] «[Bir dəstə cin belə dedi] **: «Doğrusu,**

---

[93] «əs-Saffat» surəsi, 35,36.
[94] «əl-Əraf» surəsi, 188.
[95] «əl-Əhzab» surəsi, 40.

**biz hidayət yolunu göstərəni** [Quranı] **dinlədiyimiz zaman ona iman gətirdik. Kim Rəbbinə iman gətirsə, nə əskilməsindən, nə də haqsızlığa məruz qalmaqdan qorxar. Şübhəsiz ki, aramızda** [Allaha və Onun rəsulu Məhəmməd səllallahu aleyhi və sәlləmə iman gətirən] **müsəlmanlar da var,** [haqq yoldan] **çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır».**[97]

- Quranın məhz ona nazil olması;

**«Çünki Allah sənə Quranı və hikməti** [Sünnəni] **nazil edərək bilmədiklərini öyrətdi. Allahın sənə lütfü böyükdür!»**[98]

- Qiyamət günü olacaq tərifəlayiq məqamda şəfaətçi olması;

**«Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama** [axirət günü ən böyük şəfaət məqamına] **göndərsin!»**[99]

- Hər bir ümmətə etdikləri əməllərinə görə öz peyğəmbərinin şahid gətiriləcəyi Qiyamət günü, Məhəmmədin **- səllallahu aleyhi və səlləm -** onlardan fərqli olaraq həm öz ümmətinə, həm də peyğəmbərlərə şahid gətirilməsi;

«[Ya Məhəmməd!] **Hər ümmətdən** [peyğəmbərini] **bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman nə cür olacaq?»**[100]

- Cənnətə daxil olan ilk şəxs olması;

Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Qiyamət günü mən Cənnətin qapısına yaxınlaşıb onun açılmasını dilədikdə gözətçi (mələk): «Sən kimsən?» - deyə soruşacaq. Mən: «Məhəmmədəm» - deyə cavab verdikdə

---

[96] «əl-Əraf» surəsi, 158.
[97] «əl-Cinn» surəsi, 13,14.
[98] «ən-Nisa» surəsi, 113.
[99] «əl-İsra» surəsi, 79.
[100] «ən-Nisa» surəsi, 41.

o deyəcəkdir: «Mənə əmr olundu ki, səndən öncə heç bir kimsə üçün qapını açmayım».[101]

- Beş xislətin ona verilməsi;

Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Mənə beş (xislət) verilib ki, bunlar məndən əvvəlki peyğəmbərlərə verilməyib: «Bir ay əvvəl düşmənin qəlbinə qorxu salaraq ona qalib gəlməyim, yer üzünün mənim üçün pak və məscid[102] olması – belə ki, ümmətimdən olan hər bir kəs istənilən yerdə vaxtı girmiş namazı qılmalıdır, qənimətlərin[103] mənə halal olması – belə ki, bu məndən qabaq heç bir peyğəmbərə halal olmayıb, Qiyamət günü (tərifəlayiq məqamda) şəfaət verməyim və bir də hər bir peyğəmbər yalnız öz qövmünə göndərilərdi, mən isə bütün insanlara göndərilmişəm».[104]

---

[101] «Səhih-Muslim», 485.
[102] İbadət yeri.
[103] Döyüşdə əldə edilən mal.
[104] «Səhihul-Buxari», 335; «Səhih-Muslim», 1163.

# Son söz

Uca Allahın köməyi sayəsində bu risaləni sona yetirə bildik. Buradakı yazılardan nə dərəcədə faydalanmaq isə sizin boynunuza düşən bir məsuliyyətdir. İstərdik ki, bu risaləni oxuyan şəxs hər bir zaman ölə biləcəyini unutmasın. Bu heç də o demək deyildir ki, insan dünya işlərini tərk edib, yalnız dini ayinlərin icrası ilə məşğul olub tərki dünya olsun. Əksinə, hər bir müsəlman öz dövlətinin inkişafı üçün əlindən gələni əsirgəməməlidir. Axı nə üçün dinimiz bizi elmə, tərəqqiyə çağırdığı halda digər qövmlərdən geri qalaq? Məgər biz ixtiralar, kəşflər etməkdə acizik? Məlumatlı olanlar çox gözəl bilirlər ki, İslam elm üzərində qurulan bir dindir. İslam insanları azad fəaliyyətə, inkişafa, tərəqqiyə və maarifə səsləyəndə bir çox qövmlər bu fəzilətlərdən xəbərsiz idilər. Odur ki, dinə və elmə eyni dərəcədə bağlı olmağınızı tövsiyə edirik. Çünki elmsiz dinin, dinsiz isə elmin faydası olmaz!

**Azerislam.com**